**UOT 81**
**https://doi.org/10.59849/2311-8482.2025.1.186**

**ƏLİ ALLAHVERDİYEV***

# "OĞUZ" SÖZÜNÜN MƏNASI, ONUN TƏŞƏKKÜL TAPMASI VƏ GÖYTÜTK XAQANLIĞI İLƏ BAĞLI DÜNYA ƏDƏBİYYATÇILARI TƏRƏFİNDƏN İRƏLİ SÜRÜLƏN FƏRZİYYƏLƏR

*Məqalədə "Oğuz" sözünün mənası, onun təşəkkül tapması və Göytütk xaqanlığı ilə bağlı dünya ədəbiyyatçıları tərəfindən irəli sürülən fərziyyələr diqqəti cəlb edir. Belə ki, bu tədqiqatçılar Oğuz sözünü aşağıdakı kimi izah etməyə çalışmışlar: P. Pellat-klan, ailə, qəbilə(1914), L. Bazin-oğuz, oğuş, gənc buğa (1953), J. R. Hamilton-oğuz, oğuş, klan, qəbilə (1962). Eyni zamanda məqalədə qeyd edilir ki, tarixi mənbələrə əsasən Vl əsrdən etibarən "Göytürk xaqanlığında toplanan türk qəbilələrinin bir qismi 630-cu ildən başlayan fitrət (hakimiyyətlər arası dövr) dövründə bir çox türk boyları ilə birləşərək Tola-Selenga çayları bölgəsində Doqquz Oğuz xaqanlığını meydana gətirmişlər. Məqalədə Oğuzların Sır-dərya ətrafında lX əsrin l yarısından etibarən yaşadıqları bildirilir.*

***Açar sözlər**: Göytürk xaqanlığı, türk boyları, irəli sürülən fərziyyələr, oğuz sözünün təşəkkül tapması, türk qəbilələri, oğuz boyları.*

**Giriş**

Dünya ədəbiyyatında Oğuz sözünün meydana gəlməsi tarixi və mənası ilə bağlı müxtəlif fərziyyələrin ortaya çıxması diqqəti cəlb edir. Belə ki, bu tədqiqatçı alimlər bu sözün mənasını aşağıdakı formada açıqlayırlar:

**Əsas məzmun**

P. Pelliot- klan, ailə, qəbilə (1914), D. Sinor- oğuz, öküz(1914), A. Boodberq- uğuz, oğuz, buynuz(1939). O. Pritsak- oğuz, qəbilə(1952), L. Bazin-oğuz, oğuş, gənc buğa(1953), J. R. Hamilton-oğuz, oğuş, klan, qəbilə(1962). G. Nemes isə bu sözün qəbilə (bir siyasi quruluşa bağlı) mənası verən "ok" sözünə əski türkcədəki-iz cəm şəkilçisi artırmaqla (ok+uz) yarandığını və "qəbilələr" demək olduğunu qeyd edir. Tarixi mənbələrdə qeyd edilir ki, Vl əsrdən etibarən Göytürk xaqanlığında toplanan türk qəbilələrinin bir qismi 630-cu ildən başlayan fitrət (hakimiyyətlər arası dövr) dövründə bir çox türk boyları ilə birləşərək Tola-Selenga çayları bölgəsində Doqquz Oğuz xaqanlığını meydana gətirmişlər. Tarixi kitabələrdəki ifadələr oğuzlarla göytürklər arasında heç bir ayrılığın olmadığı, hətta xaqanlığın təməlinin də oğuzlardan təşkil edildiyi bildirilir. Bu səbəbdən oğuzlarla göytürklərin eyni kökdən olması bir daha təsdiqlənir. V. Bartoldun "Göytürk xaqanlığının Doqquz Oğuzlardan nəşət etməsi fikri əslində əski Aşina ailəsilə bu oğuz birliyinin əlaqəsinin isbat olunma ehtiyacını doğursa da, Vl-Vll əsr türk (Göytürk) kütləsinin doğrudan da oğuzların bir qrupundan təşəkkül etdiyi Çin qaynaqlarında açıqlanmaqdadır. Bəzi mənbələrə əsaslanaraq "Oğuz birliyi" mənsublarının həmdə çox saylı kütlələr arasında əvvəlcə Talas ətrafına köç etmələri və Xl əsrdə Seyhun oğuzlarının söyləniş cəhətdən Doğu türklərindən (Şərqi türklərdən) fərqli bir türkcədə danışmaları nəzərə alınarsa, həmin köçün lX əsrdən öncə meydana gəldiyi irəli sürülməkdədir. Oğuzlar Sır-dərya (Seyhun) ətrafında lX əsrin l yarısından etibarən yaşamaqda idilər. X əsrin ilk yarısından oğuzlar Seyhun yamacları ilə yaxınlıqdakı Qaracuq (Fərab) və Sayram (İlticab) şəhərləri ətrafına dönürdülər. Yabqu dövləti zamanında oğuzlar "Boz ok" və "Üç ok" deyilən iki təşkilat halında idi. İki mənbədə M. Kaşqarlının "Divani lüğət-it türk" və Rəşidəddinin "Cami-üt təvarix" əsərlərində bu qolları meydana gətirən qəbilələr haqqında məlumat verilir. "Divani lüğət-it türk"də ayrı-ayrı damğaları ilə 22 qəbilə göstərilmişdir. Rəşidəddin isə həmin qəbilələrin sayını 24-ə çıxarmış, həm də üç ok və boz ok təsnifini aparmış, ayrıca hər qəbilənin "onqonunu" (totemini) damğalara əlavə etmişdir. Yabqu dövləti çökəndən sonra oğuzların böyük bir qismi Qara dənizin cənubundan qərbə köçmüş, digər bir qisim (səlcuqlar) Cend bölgəsinə, oradan da Xorasana, sonra Anadoluya yönəlmişlər. Yerlərində qalan oğuzların Xl əsrin ortalarında Qaracuq dağları bölgəsində, Manqışlaq və Seyhun sahilindəki qəsəbələrdə yaşadıqları, monqol istilası zamanında isə Cenddə və Qaraqumda türkmənlərin olduğu görünməkdədir. Bugün orta Asiyadakı "Türkmənistan" xalqı bu oğuzların övladlarıdır. Anadoluda bir çox yaşayış məntəqəsi yuxarıda xatırlanan oğuz boylarının adını daşıyır.

Oğuz boylarından qurulan Böyük Səlcuq imperatorluğu, Səlcuq dövlətləri, Atabəylər, Türkmən bəylikləri, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, Qazi Büthanəddin, Ramazan oğulları, Dulkadirlilər, Bərçən oğulları və yaruklular, İranda Əfşar, Qacar xanədanları, Anadolu bəylikləri, Osmanlı İmperatorluğu və Türkiyə Cümhuriyyətinin hamısı Göytürk xaqanlığının gövmü, sosial, idari, əsgəri və mədəni varisləri olmuşlar.

**Nəticə**

Bu durum çeşidli tütk kütlələri arasında xüsusən Xl əsrdən etibarən 200 il sürən köçləri ilə bütün Orta Şərq ərazisini tutaraq yuxarıda qeyd etdiyimiz siyasi təşəkkülləri və Anadoluda əbədi bir Türk Vətəni quran Oğuz zümrəsinin Türk, İslam və dünya tarixindəki xüsusi mövqeyini ortaya qoyur.

## ƏDƏBİYYAT

1. Barthold W. Toghuz oghuz. 1974
2. Hamilton J. R. Tokuz-Oguz et on Uygur. Journal
Rsiatigue, Paris, 1962
3. Kaşğarlı M. Divani lugat-it türk, Ankara 1939-1944
4. Thomsen V. Mongolistanda türkce kitabeler, Türkiyat Mecmuesi, İstanbul, 1935
5. Minorsky V. İslam Ansiklopedisi, 1976

***Naxçıvan Dövlət Universiteti**
***E-mail:alisem4952@gmail.com***

**Ali Allahverdiyev**

### THE MEANING OF THE WORD "OGHUS", ITS FORMATION AND THE GOYTUTK KHAGANITY CONCERNING THE HYPOTHESES PROPOSED BY WORLD LITERATURE WORKERS

The article draws attention to the hypotheses put forward by world literati workers regarding the meaning of the word "Oguz", its formation and the GOYTUTK KHAGANITY. Thus, these researchers tried to explain the word Oguz as follows: P. Pellat-clan, family, tribe (1914), L. Bazin-oghuz, oghush, young bull (1953), J. R. Hamilton-oghuz, oghush, clan, tribe (1962). At the same time, the article notes that, according to historical sources, from the 6th century onwards, "some of the Turkic tribes gathered in the Goyturk Khaganate, during the Fitrat (interregnum) period starting in 630, united with many Turkic tribes and formed the Nine Oghuz Khaganate in the Tola-Selenga River region. The article states that the Oghuz lived around the Syr Darya River from the first half of the 10th century onwards.

**Keywords:** *Goyturk Khaganate, Turkic tribes, hypotheses put forward, the formation of the word Oghuz, Turkic tribes, Oghuz tribes.*

**Али Аллахвердиев**

### ЗНАЧЕНИЕ СЛОВА «ОГУС», ЕГО ОБРАЗОВАНИЕ И ГИПОТЕЗЫ МИРОВЫХ ЛИТЕРАТУРИСТОВ О ГЕЙТУТКСКОМ КАГАНАТЕ

В статье обращается внимание на гипотезы, выдвинутые мировыми литературоведами относительно значения слова «Огуз», его формирования и Гёйтукского каганата. Так, эти исследователи пытались объяснить слово Огуз следующим образом: П. Пеллат – род, семья, племя (1914), Л. Базин – огуз, огуш, молодой бычок (1953), Дж. Р. Гамильтон – огуз, огуш, род, племя (1962). В то же время в статье отмечается, что, согласно историческим источникам, начиная с VI века, «часть тюркских племён, объединившихся в Гёйтюркский каганат, в период междуцарствия (фитрата), начавшегося в 630 году, объединилась со многими тюркскими племенами и образовала Девятиогузский каганат в Тола-Селенгинском регионе. В статье указывается, что огузы жили в районе реки Сырдарья с первой половины X века».

**Ключевые слова:** *Гёйтюркский каганат, тюркские племена, выдвинутые гипотезы, образование слова Огуз, тюркские племена, огузские племена.*

*Filologiya üzrə fəlsəfə doktoru Firudin Rzayev tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.02.2025**
**Son daxilolma tarixi:15.03.2025**